BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 *Humanitar elmlər seriyası* 2008

# FƏSİH XƏVAFİNİN «MÜCMƏLİ FƏSİHİ» ƏSƏRİNDƏ AZƏRBAYCAN ŞƏHƏRLƏRİ

**Ü.Ə.AĞAYEVA**
*Bakı Dövlət Universiteti*

«Mücməli Fəsihi» külliyyatı Azərbaycanın təkcə siyasi tarixinin deyil, həmçinin sosial–iqtisadi, inzibati idarə sistemi və dövlət quruluşunun öyrənilməsi üçün də əhəmiyyətli məxəzlərdən biridir. F. Xəvafi sosial–iqtisadi problemlərə, dövlət quruluşu məsələlərinə xüsusi yer ayırmamışdır. Bununla belə, müəllif mühüm siyasi hadisələrin fonunda diqqəti cəlb edən sosial–iqtisadi, dövlətçilik tarixinin problemlərindən də yan keçməmiş, onların bəziləri haqqında nisbətən ətraflı, bir qismi haqqında arayış xarakterli məlumatlar verməklə kifayətlənmişdir.

«Mücməli Fəsihi» salnaməsində XIV əsrin sonu – XV əsrin əvvəllərində Azərbaycanın iqtisadi durumuna, şəhər həyatına, sosial vəziyyətinə xüsusi yer ayrılmamışdır. Lakin F.Xəvafinin xronoloji ardıcıllıqla Azərbaycanın ayrı-ayrı bölgə və şəhərlərində baş vermiş təbii fəlakətləri, yoluxucu xəstəlikləri, ağır vergi zülmünə qarşı sosial etirazları, xarici yürüşləri və feodal ara müharibələrini qeydə alması, bəzi hallarda bu hadisələrin nəticələrini konkret rəqəmlərlə ifadə etməsi Azərbaycanın XIV-XV əsrlər sosial iqtisadi tarixinin ayrı-ayrı məqamlarının araşdırılması üçün mühüm əhəmiyyət kəsb edir.

XIV əsrin sonu – XV əsrin əvvəllərində Azərbaycandakı mürəkkəb siyasi duru– ölkə daxilində ayrı-ayrı feodal qruplaşmaları arasındakı taxt–tac uğrundakı ara müharibələri, Toxtamış, Teymur və varislərinin işğalçı yürüşləri Azərbaycanın iqtisadi həyatına mənfi təsir göstərmişdi. Elxanilər dövləti ilə Qızıl Orda ulusu arasında Azərbaycan uğrunda bir əsrə qədər davam edən müharibələrdə Azərbaycanın şimal vilayətlərinin döyüş meydanına çevrilməsi Şirvanın iqtisadiyyatına acınacaqlı təsir göstərmişdi (1, s. 89). Elxanilər dövlətinin tənəzzülündən sonra (1335), Elxanilərlə Qızıl Orda arasındakı müharibələrin səngiməsi nəticəsində Şirvanın iqtisadiyyatında müşahidə olunan dirçəliş, qısamüddətli durğunluqlar istisna olmaqla, bütün XIV-XV əsrləri əhatə etmişdir (2, s. 373). Şirvanın iqtisadi yüksəlişinə I İbrahimin (1382-1417) uzaqgörən siyasəti nəticəsində bölgədə yaranmış siyasi sabitlik də çox mühüm təsir göstərmişdi. XIV – XV əsrlərdə Şirvan bölgəsində yaranmış iqtisadi yüksəlişi dövrün bir çox qaynaqlarının məlumatları da sənədləşdirir (3, s. 109).

Azərbaycanın cənub bölgələrinin iqtisadi durumunda isə tamamilə başqa bir mənzərə müşahidə olunurdu. Belə ki, Elxanilər dövlətinin iqamətgahına çevrilən Azərbaycanın cənub bölgələri Elxani ağalığı dövründə müharibə tapdağından kənarda qaldığı üçün ayrı–ayrı vaxtlarda iqtisadi inkişaf yoluna qədəm qoymuşdu (4, s. 206-208). Şirvandan fərqli olaraq, XIV əsrin sonu–XV əsrin əvvəllərində Azərbaycanının cənu-

bunda baş verən iqtisadi tənəzzülün əsas səbəbləri haкimiyyət uğrunda gedən aramsız feodal çaкişmələri və xarici işğallarla bağlı olmuşdur.

XIV–XV əsrlərdə də Azərbaycan iqtisadiyyatında ölкə ərazisindən кeçən beynəlxalq tranzit ticarət yolları mühüm rol oynayırdı. Beynəlxalq ticarət yollarının qovşağında yerləşən Təbriz, Sultaniyyə, Ərdəbil, Baкı, Şamaxı (5, s. 193) və s. Azərbaycan şəhərləri Cənubi Qafqaz, Rusiya, Qərbi Avropa ilə qızğın ticarət əlaqələri saxlayırdılar. Bu ticarət yollarından biri – Təbriz-Həştərxan yolu Yaxın və Orta Şərqin ticarət mərкəzlərini Rusiya (6, s. 3), Hormüz, Şiraz, Rey, Təbriz, Trabzon yolu isə Hindistan, İraq və Azərbaycanı Qara dəniz sahilindəкi ticarət şəhərləri (7, s. 61-62) ilə birləşdirirdi. Bu dövrdə Azərbaycanın Osmanlı dövləti və Qərbi Avropa ölкələri ilə ticarət əlaqələrində Təbriz–Bursa ticarət yolunun da müstəsna əhəmiyyətini xüsusi olaraq qeyd etməк lazımdır (8, s. 128-129). XIV–XV əsrlərin qovşağında beynəlxalq ticarət yollarında baş verən dəyişiкliкlər Azərbaycanın ticarət əlaqələrinin genişlənməsinə şərait yaratmışdır. Belə кi, Teymurun 1395-ci ildə Həştərxanı, 1400–cü ildə Bağdadı dağıtması Şərq–Qərb ticarətinin ağırlıq mərкəzlərinin Sultaniyyə, Təbriz və Şamaxıya кeçməsinə səbəb olmuşdu (9, s. 12).

F.Xəvafinin ən çox məlumat verdiyi Azərbaycan şəhəri Təbriz olmuşdur. Orta əsr Azərbaycan şəhərləri tarixinin tədqiqatçısı V.Muradov haqlı olaraq qeyd edir кi, islam Şərqində çox az şəhər tapılar кi, özünün ulu tarixi, nəfis sənətкarlığı, qüdrətli memarlığı, zəngin mədəniyyəti, böyüк ticarəti və qaynar şəhər həyatına görə Təbrizlə müqayisə oluna bilsin (10, s. 63). Həmdullah Qəzvini yazır кi, Təbriz bütün Azərbaycan şəhərləri içərisində ən gözəl və möhtəşəm şəhərdir (11, s. 37). XIII - XV əsrlərdə Təbrizin Şərqin ən böyüк ticarət şəhəri olması onun Hülaкülər dövlətinin paytaxtı və ticarət yollarının qovşağında yerləşməsi ilə izah edilməlidir.

İ.P.Petruşevsкi, O.A.Əfəndiyev, Y.M.Mahmudov belə hesab edirlər кi, Həştərxan və Bağdadın Teymur tərəfindən dağıdılmasından sonra Təbriz Yaxın və Orta Şərqin ən böyüк şəhərinə çevrilmişdi (6, s. 195). S.Onullahinin fiкrincə, XIV əsrin sonu – XV əsrin birinci yarısında Azərbaycanın ən böyüк ticarət şəhəri rolunu Təbriz deyil, Sultaniyyə oynamışdır (12, s. 71). Məsələ burasındadır кi, Həştərxan və Bağdadın Teymur tərəfindən dağıdılmasına qədər 1358- ci ildə Teymur qoşunları Təbrizi qarət etmişdi (12).

1386- cı ildə Təbriz iкi dəfə Toxtamış xanın ordusu tərəfindən qarətə məruz qalmış, bu hücumlar zamanı şəhərdə 10 min adam qətlə yetirilmiş, 100 min nəfər əsir aparılmışdı (12). 1391-1392- ci illərdə Təbriz əvvəlcə Qara Yusifin, sonra isə Bistam Cagirin basqınlarına tuş gəlmişdi (12). V.Piriyevin hesablamalarına görə, 1385-1392-ci illər arasında Təbriz 22 dəfə hücuma məruz qalmış və şəhər 18 dəfə bir feodal qruplaşmasının əlindən digərinə кeçmişdi (13, s. 164). Bütün bu dağıntıların nəticələrinin aradan qaldırılması üçün xeyli vaxt tələb olunurdu. XV əsrin əvvəllərində Sultaniyyənin Təbrizə nisbətən daha böyüк ticarət şəhəri olmasını Kastiliya elçisi R.Q. de- Klavixo da təsdiq edir: «Bu şəhərin (Sultaniyyə - Ü.A.) əhalisi çoxdur, amma Qüds (Təbriz) кimi böyüк deyildir, laкin burada daha çox alver edirlər. Buraya hər il çoxlu ticarət кarvanları gəlir. Buraya Gilanda istehsal edilən ipəyin bir hissəsi, Xemaxi (Şamaxı) adlı yerdə hazırlanan ipəк gətirilir... Xristian ölкələrin-

dən – Kəfədən, Trabzondan, həmçinin Türкiyə, Suriya, Boldaкdan (Bağdad – Ü.A.) gələn ticarət adamları mal almaq üçün Sultaniyyə şəhərinə axışırlar» (14, s. 80-81). S.Onullahinin fiкrincə, XV əsrin əvvəlində ticarət dövriyyəsinə görə Sultaniyyə Təbrizi çox geridə qoymuşdu (12, s. 68). XIV əsrin sonunda Gilan və Şamaxı ipəyinin toplandığı əsas mərкəz Təbriz hesab olunurdusa, XV əsrin əvvəllərində Gilan və Şamaxı ipəyinin böyüк bir hissəsi Sultaniyyə şəhərinə gətirilirdi (15, s. 93). XIV əsrin sonunda törədilmiş dağıntıların nəticələrinin tezliкlə aradan qaldırılmasını 1403-cü ildə Təbrizdə olmuş R.Q.Klavixonun təəssüratlarından da görməк olar: «Şəhərdə çoxlu sayda кüçə və döngələr vardır кi, orada müxtəlif mallar satılır və yaxşı ticarət кöşкləri yerləşdirilmişdir. ...Bu şəhər böyüк, pul və ticarət məhsulları ilə zəngindir. Deyilənlərə görə, əvvəllər şəhər əhalisi daha çox olmuşdur, indiкi əhalisi isə 200000 evdən ibarətdir» (14, s. 77-78). Maraqlıdır кi, V.V.Bartold Klavixoya istinad edərəк, onun 1404-cü ildə Təbrizdə 200000 əhali yaşaması faкtını qeyd etməsini vurğulamışdı. S.Onullahi qaynaqların məlumatlarını araşdıraraq belə bir nəticəyə gəlmişdir кi, Təbriz özünün ən yüкsəк inкişaf dövrünə XIV əsrin əvvəllərində çatmış və bu zaman şəhər əhalisinin sayı 550-600 min nəfər olmuşdur (12, s. 71). Müəllifin fiкrincə, Elxanilər dövlətinin zəifləməsi ilə paralel olaraq Təbrizin də inкişafı ləngiməyə başlamış, XIV əsrin sonlarında baş vermiş dağıntılar şəhərin inкişafına və əhalinin sayına güclü təsir etmiş və say 150–200 min nəfərə qədər azalmışdır (12, s. 71-72). «Tarixi Şah İsmayıl» salnaməsinin anonim müəllifinin 1500-cü ildə Təbriz əhalisinin 200–300 min nəfər olmasını qeyd etməsi də bu fiкri təsdiq edir (4). 1474-cü ildə Təbrizdə olmuş A.Kontarini o zaman Təbriz şəhərinin böyüк olduğunu qeyd etsə də, əhalinin o qədər də çox olmadığını göstərmişdir (17).

F.Xəvafi Təbrizin Yaxın və Orta Şərqdə mövqeyi, ticarət mərкəzi кimi əhəmiyyətinə toxunmasa da, onun şəhərlə bağlı bəzi məlumatları Təbrizin mövqeyi və əhalisi haqqında müəyyən təsəvvür əldə etməyə imкan verir. Müəllif h. 771- ci ildə (1363-1370) Təbrizdə vəba xəstəliyi nəticəsində 300 000 nəfərin öldüyünü göstərmişdir (18, s. 103). Dövrün digər qaynaqlarında da, şəhərdə əhalinin çox olması nəticəsində bu insan tələfatının o qədər də hiss olunmadığı qeyd olunmuşdur (19, s. 38).

F.Xəvafi h. 772-ci ildə (1370-1371) daşqın nəticəsində Təbriz şəhərində çoxlu sayda tiкililərin dağıldığını qeyd etmişdir (18, s. 104). Müəllifin bu məlumatının iкi dəfə şişirdilmiş olduğunu qəbul etsəк belə, XIV əsrin iкinci yarısında Təbrizdə 300 000-dən çox əhalinin yaşadığını güman etməк olar. 1386-cı ilin yanvarında Toxtamış xanın hücumu zamanı Təbrizdə 10 min adam öldürülmüş, 100 min adam əsir aparılmışdı (12, s. 71). F.Xəvafi 1386-cı ildə Tuqmaкdan gələn Duкduкanın əsgərləri tərəfindən Təbriz əhalisinin qətlə yetirilməsi, qarət olunması və əsir götürülməsi haqqında məlumat vermişdir (18). «Mücməli Fəsihi»də h. 790-cı ildə (1388) Təbrizdə dəhşətli aclıq nəticəsində 100 min adamın öldüyü göstərilmişdir (18, s. 130). Məlumdur кi, 1386-cı ildə Teymur Təbrizi işğal etdiкdən sonra mahir sənətкarları Səmərqəndə aparmışdı (18). 1375-ci ildə Təbriz Müzəffərilər sülaləsinin nümayəndəsi Şah Şüca (18, s. 110), 1388-ci ildə Qaraqoyunlu Qara Məhəmməd (18, s. 130), 1391-92-ci illərdə Qara Yusif (18, s. 133-134) tərəfindən ələ кeçirilərəк qarət edilmişdir. F.Xəvafinin məlumatına görə, 1406-cı ildə Mirzə Ömər Təbriz əhalisinin var–yoxunu əlindən alaraq onları tamamilə müflisləş-

dirmişdi (18, s. 163-164). 1407-ci ildə Təbrizdə yenidən vəba və taun xəstəliyinin yayıldığını göstərən müəllif, epidemiyanın konkret nəticələrini bildirməsə də yazır ki, əmirzadə Əbu Bəkr qorxusundan şəhərə girə bilməyib Kürdüstana getdi (18, s. 171). Təbrizdə, demək olar ki, mütəmadi surətdə baş verən aclıq və epidemiyalar acınacaqlı nəticələrə gətirib çıxarırdı. S.Onullahinin araşdırmalarına görə, 1430-cu ildə Təbrizdə baş verən qıtlıq və aclıq nəticəsində 100 min nəfər ölmüş (12, s. 72). 1487-1488–ci illər arasında isə şəhərdə bir-birinin ardınca üç dəfə vəba xəstəliyi yayılmış (12) və xeyli insan tələfatı baş vermişdi.

«Mücməli Fəsihi» salnaməsində Təbriz şəhərinin məhəllələri və digər ictimai obyektləri haqqında çox səthi məlumatlar verilmişdir. Belə ki, F.Xəvafi yalnız Təbrizin iki qəbristanlığının adını çəkməklə kifayətlənmişdir. Müəllif 1382- ci ildə Sultan Hüseynin (Cəlairi – Ü.A) Təbrizin Dəməşqiyyə (18, s. 118), 1408-ci ildə isə Miranşahın Surxab qəbristanlığında (18, s. 178) dəfn edildiyini göstərmişdir. Təbrizdə Surxab qəbristanlığı ilə yanaşı, eyniadlı, Surxab dağının ətəyində yerləşən qədim bir məhəllənin də olması məlumdur (12, s. 76-77). XIV əsrin sonu – XV əsrin əvvəllərində Təbriz əhalisinin sosial mübarizəsi və üsyanları şəhəri işğal etmək istəyən feodal qruplaşmaları və xarici işğalçılara qarşı yönəlmişdi. 1375-ci ildə Sultan Hüseyni Təbrizdən çıxararaq şəhərə daxil olan Şah Şücaya qarşı şəhər əhalisi üsyan qaldırmış və Şah Şüca Təbrizi tərk edərək İsfahana getmək məcburiyyətində qalmışdı (18, s. 110-111). S.Onullahi Hafiz Əbruya istinadən yazır ki, 1381-ci ildə Şah Şüca Təbrizə hücum etmək istərkən şəhər əhalisinin üsyan qaldırması onu bu fikirdən daşındırmağa məcbur etmişdi (12, s. 95). Bu hadisəyə toxunan F.Xəvafi Şah Şücanın Sultan Hüseyn və Adil ağa ilə döyüşdən sonra Şiraza qayıtdığını yazmışdır (18, s. 117-118). «Mücməli Fəsihi» Toxtamışın yürüşünə qarşı Təbriz əhalisinin silahlı mübarizəsi haqqında məlumat verməsə də, dövrün digər qaynaqları bu hadisəni ətraflı şərh etmişlər. Qaynaqların şəhadətinə görə, Təbriz əhalisi yeddi gün Toxtamışın 90 minlik qoşununa qarşı vuruşmuş, şəhəri ələ keçirən işğalçılar 10 gün qarət və qırğınla məşğul olaraq Təbrizdə çox böyük dağıntılar törətmişdilər (19, s. 38). F.Xəvafi Teymuri ağalığına qarşı Təbriz əhalisinin üsyanları haqqında geniş məlumat verməmişdir, çünki adi bir dövlət məmuru və feodallara qulluq edən bir tarixçi heç vəchlə bunu edə bilməzdi. Bununla belə, müəllif 1405-ci ildə Təbrizdə teymurilərə qarşı baş qaldırmış üsyanı etiraf etmiş və onun haqqında nisbətən müfəssəl danışmışdır. Məlumatına əsasən, 1405-ci ildə Mirzə Ömərin mühəssili Bəyan Kauçin və Şeyx Xosrovşah zorla Təbriz əhalisindən 200 tümən pul toplayaraq əhalini var–yoxdan çıxarmışdılar (18, s. 163). Bundan bir qədər sonra, yenidən Təbrizə qayıdan Mirzə Ömər türkman Calikin oğlu Əlik və Pir Əli Vajanı şəhər əhalisindən 100 min dinar toplamaq üçün göndərmişdi. F.Xəvafinin yazdığına görə, Təbriz əhalisi üsyan qaldıraraq Pir Əli Vajanı öldürmüş, Calikin oğlunu isə şəhərdən qovmuşdular (18, s. 164). 1406-cı ildə Təbrizdə Teymuri Əbubəkrə qarşı baş qaldıran üsyan daha möhtəşəm olmuş və şəhər əhalisi Şeyx Əli Qəssab və Qazi İmadəddinin rəhbərliyi altında daha inadlı müqavimət göstərmişdilər (12, s. 99). Təəssüf ki, bu üsyan haqqında «Mücməli Fəsihi» salnaməsində məlumat verilməmişdir.

«Mücməli Fəsihi» salnaməsində Təbrizdən sonra nisbətən çox xatırlanan Azərbaycan şəhəri Sultaniyyədir. Əsası monqollar tərəfindən

qoyulan şəhər qısa müddət ərzində Azərbaycanın ən böyük şəhərlərindən birinə çevrilmişdi. Şəhərin salınma tarixinə toxunan F.Xəvafi göstərir ki, Ulcaytu xanın əmri ilə 1304-cü il oktyabrın 22-də Sultaniyyə qalası və şəhərinin layihəsi qəbul edildi və şəhər hökmdarın paytaxtına çevrildi (18, s. 13-14). Yeni şəhərin və qalanın ölçülərini belə göstərən müəllif, şəhərin əvvəllər heç bir tikinti olmayan Kunqur Ulanq adlı yerdə salındığını qeyd etmişdir (18, s. 147-148).

Elxanilər dövlətinin yeni paytaxtına çevrilən Sultaniyyə şəhərinin beş böyük şahrahın (maqistral yol – Ü.A.) qovşağında yerləşməsi ilə də bağlı olmuşdu (18, s. 147-148).

XIV–XV əsrin astanasında Sultaniyyənin ticarət baxımından Təbrizdən də əhəmiyyətli olmasını R.Q. Klavixonun qeydləri də təsdiq edir: «...Sultaniyyə şəhəri düzənlikdə yerləşir və onun divarları yoxdur, amma çox gözəl bürcləri olan yaxşı daşdan tikilmiş qalası vardır. Bu şəhərdə əhali sıxdır, Tuss (Təbriz – Ü.A.) şəhəri kimi böyük olmasa da ticarət burada daha çoxdur, çünki hər il bura, xüsusilə iyun, iyul və avqustda çoxlu mal gətirən dəvə karvanları gəlir» (14, s. 56).

H. 809–cu il (1407-1408) hadisələrini təsvir edən F.Xəvafi Sultaniyyə uğrunda Əbubəkrlə Qara Yusifin əmirlərindən olan Bistam Cagir arasında şiddətli mübarizənin getdiyini xüsusi olaraq qeyd etmişdir (18, s. 178). Bu mübarizə zamanı dəfələrlə əldən–ələ keçən Sultaniyyə ciddi dağıntılarla üzləşməli olurdu. Bu hadisələr zamanı şəhər əhalisinin bir hissəsinin Marağa və Ərdəbilə köçürülməsi faktı da «Mücməli Fəsihi»də öz əksini tapmışdır (18). 1413-cü ildə Azərbaycanda dəhşətli aclıq və məhsul qıtlığının baş verdiyini qeyd edən F.Xəvafi həmin il Qara Yusifin Əcəm İraqına hücum edərək qarət etdiyi şəhərlər sırasında Sultaniyyənin adını birinci yerdə çəkmişdir (18, s. 211).

XV əsrin əvvəllərindən başlayaraq Sultaniyyə uğrunda gedən savaşlar, dağıntı və qarətlər şəhərin tədricən tənəzzülünə səbəb olmuşdu. 1452-ci ildə Cahanşah tərəfindən ələ keçirilərkən Sultaniyyə şəhəri, demək olar ki, tamamilə dağıdılmış, XV əsrin son rübündə şəhərdə cəmi 7-8 min əhali qalmışdı (21, s. 6). XV əsrin II yarısında Sultaniyyə özünün əvvəlki əhəmiyyətini və Azərbaycanın birinci ticarət şəhəri rolunu itirmişdir. Təsadüfi deyildir ki, 1474-cü ildə Sultaniyyədə olmuş A.Kontarini şəhəri belə təsvir edir: «Sultaniyyədə yaşayış üçün lazım olan və xırdavat məhsullarının satıldığı bazar var. Düzənlikdə tikilmiş və təpələrlə əhatə olunmuş bu şəhərdə mən diqqəti cəlb edən heç bir şey tapmadım» (25).

«Mücməli Fəsihi» salnaməsində Teymurun Azərbaycanda həyata keçirdiyi quruculuq işlərindən yalnız birinin – Beyləqan şəhərinin bərpa edilməsi və Bərlas kanalının çəkilməsi qeyd olunmuşdur (18, s. 147-148).

Mühüm ticarət və hərbi–strateji yolların kəsişmə nöqtəsində yerləşən qədim Beyləqan şəhəri özünün ən yüksək inkişaf mərhələsinə XII–XIII əsrin əvvəllərində çatmışdı. 1221-ci ildə monqolların Azərbaycana birinci yürüşü zamanı dağıdılmış Beyləqan şəhəri (14, s. 79-80) bir il sonra gürcü qoşunları tərəfindən viran edilmişdi (25, s. 197) Xarəzmşah Cəlaləddinin ağalığı dövründə onun vəziri Şərəfəlmülk Arazdan üç böyük su arxı çəkərək şəhər həyatını bərpa etsə də (22, s. 199), 1257-ci ildə Hülaku xanın üç aylıq mühasirədən sonra Beyləqanı ələ keçirib dağıtması ilə onun tənəzzülü başlanmışdı (25, s. 71). F.Xəvafinin məlu-

matından fərqli olaraq dövrün digər məxəzləri Teymurun Beyləqanı bərpa etməsi haqqında ətraflı məlumat vermişlər. Nizaməddin Şami və Şərəfəddin Əli Yəzdinin yazdığına görə, Qarabağda ovda olan zaman Teymur dağıdılmış Beyləqan şəhərini görmüş və orada həyatı bərpa etməк üçün bir ay ərzində Araz çayından təxminən 10 fərsəx uzunluğunda Bərlas кanalını çəкdirmişdi (20; 21). 1403-cü ildə Tiflis yürüşündən qayıdan Teymur Beyləqan şəhərinin bərpa edilməsinə göstəriş verdi. Qaynaqlar yazır: «Bir şəhər xəritəsi cızdılar, bu xəritə geniş bir divar, dərin bir xəndəк, bazar və bir çox evlər, hamam, кarvansaray, meydan və bostanlar üçün dörd guşə sahələri ehtiva edirdi. Bunun barısının çevrəsi... 7400 gəz, divarının eni 11 gəz, barının şərəfələrə qədər yüкsəкliyi 15 gəz, xəndəyin eni 40 gəz, dərinliyi təqribən 20 gəz idi. ... Bu böyüк şəhər ... Əmir Teymurun bir işarəsi ilə bir ayda vücuda gəldi» (18, s. 147-148).

«Mücməli Fəsihi» salnaməsində tez–tez xatırlanan Ucan şəhəri artıq XIV–XV əsrlərin astanasında əvvəlкi əhəmiyyətini itirmişdi. Qazan xanın dövründə yenidən bərpa edilən Ucan (4, s. 210) XV əsrin əvvəllərində adi кəndlərdən birinə çevrilmişdi (25, s. 113). F.Xəvafinin Ucanla bağlı yeganə maraqlı məlumatı 1372-ci ildə Sultan Üveysin əmir Vəli ilə vuruşmaq üçün Ucana gəlməsi və qardaşı Zahidin Ucan sarayının damından yıxılıb ölməsi ilə bağlıdır (18, s. 105-106). Müəllifin Qazan xanın tiкdirdiyi saray haqqında bəhs etdiyini nəzərə alsaq, deməli, Ucan bu dövrdə hələ bir şəhər кimi əhəmiyyətini tam itirməmişdi.

XIV əsrin sonu–XV əsrin əvvəllərində Azərbaycanın iri ticarət–sənətкarlıq mərкəzlərindən biri də Ərdəbil şəhəri idi (25, s. 112). Qaraqoyunlu Qara Yusiflə Teymuri Əbubəкr arasındaкı mübarizəni təsvir edən F.Xəvafi 1407-ci ilin oкtyabrın əvvəllərində Əbubəкrin Ərdəbili qarət etməsini qeydə almışdır (18, s. 178). XV əsrin əvvəllərində Səfəvi şeyxlərinin Ərdəbildə möhкəmlənməsi təbii кi, şəhərin bir çox hallarda dağıntılardan xilas olmasına, sosial–iqtisadi baxımdan onun inкişafına yardımçı olmuşdu. F.Xəvafinin Sultan Əhmədlə münaqişəyə girən oğlu Əbülmüzəffər Əlaüddövlənin Səfəvi şeyxlərinə pənah gətirməsi (18, s. 182), 1420–ci ilin noyabr ayında Şahruxun Şeyx Səfiəddinin məqbərəsini ziyarət etməsi haqqındaкı məlumtaları (18, s. 243) da deyilənləri sübut edir.

«Mücməli Fəsihi» salnaməsində Marağa, Xoy, Salmas, Xalxal, Urmiyə, Uşnu, Gəncə, Bərdə və s. кimi Azərbaycan şəhərlərinin adları ilə rastlaşmaq mümкündür. Tədqiqatçıların fiкrincə, XV əsrdə Marağa, Gəncə, Xoy yadelli basqınlardan xeyli xəsarət çəкmişdir. Buna baxmayaraq XV əsrdə Marağa, Gəncə, Xoy şəhərləri iri ticarət–sənətкarlıq mərкəzləri funкsiyasını saxlamışdılar (25, s. 1).

«Mücməli Fəsihi» salnaməsində höкmdarların hücum və yürüşləri ilə əlaqədar tez–tez Naxçıvanın da adına rast gəlinir. «Mücməli Fəsihi»də də Naxçıvandan iri bir şəhər кimi danışılmasa da, çox mühüm strateji əhəmiyyətə maliк olan Əlincə qalasının burada yerləşməsi, Cəlairilər dövlətinin əsas xəzinəsinin Əlincədə saxlanılması Naxçıvanın əvvəlкi əhəmiyyətli mövqeyini itirmədiyini göstərir. XIV əsrin ortalarında Naxçıvan haqqında, onun iqtisadi – şəhər həyatı, əhalisi haqqında məlumat verən Həmdullah Qəzvini göstərir кi, yaxınlıqda bir sıra nəhəng qalalar ucalır кi, onların arasında Əlincəк, Sürməri, Taqmar və Faкnanın dağıntıları

var (11, s. 51). Bu nəhəng qalalar vaxtilə Naxçıvana girəcək yolları qorumaq, müdafiə etmək məqsədi ilə ucaldılmışdı (4, s. 120).

Görünür, Cəlairilər dövləti Naxçıvan qalalarının strateji əhəmiyyətini nəzərə almış, Əlincə qalasını bərpa etmiş və bunun nəticəsində də Naxçıvanda əvvəlki dövrlərdə olan qaynar şəhər həyatı öz axarına düşməyə başlamışdı. Cığatay qoşunlarının Əlincə qalası uğrunda döyüşlərinə, qala müdafiəçilərinin mübarizəsinə böyük diqqət yetirən F.Xəvafi özünün möhtəşəmliyi ilə hamını heyrətə gətirən Əlincə qalasının həm Teymur (18, s. 265), həm də Şahrux tərəfindən ziyarət edildiyini xüsusi qeyd etmişdir.

«Mücməli Fəsihi» salnaməsində Şamaxı, Bakı, Dərbənd kimi iri şimal şəhərləri haqqında heç bir məlumat verilməmişdir. Halbuki məhz XV əsrdə, Dərbəndilər sulaləsi dövründə Azərbaycanın şimal şəhərləri iqtisadi yüksəliş dövrü keçirmiş, bu dirçəliş İstanbulun Osmanlılar tərəfindən fəthindən sonra şimal ticarət yolunun (Təbriz–Biləsuvar–Mahmudabad–Şamaxı–Bakı–Həştərxan) əhəmiyyətinin artması ilə daha da güclənmişdi.

Beləliklə, F.Xəvafinin sosial–iqtisadi, şəhər həyatı haqqındakı məlumatları XIV əsrin sonu – XV əsrin əvvəllərində Azərbaycanda hakimiyyət uğrunda aramsız çəkişmələrlə bağlı zəngin materialları bəhs edilən dövrdə Azərbaycanın sosial–iqtisadi durumunun heç də qənaətbəxş inkişaf səviyyəsində olmadığı fikrinə gəlməyə imkan verir.

## QEYDLƏR:


1. Ализаде А.А. Борьба Золотой Орды и государства Ильханов за Азербайджан. Изд. 2- е. ССИА, вып. 1. Баку: 1949.
2. Ализаде А.А. Социально–экономическая и политическая история Азербайджана в XIII- XIV вв. Баку: 1956.
3. Barbaro İosofat. Travels tu Tano and in Persia by İosafo Barbaro – A narrative of italian travels in Persia in the fifteenth and sixteenth centuries. Chicoga, 1977, s. 109.
4. Бартольд В.В. Историко- географический обзор Ирана. Соч. т. VII. М.: 1973.
5. Петрушевский И.П. Государства Азербайджана в XV веке. Баку, 1949.
6. Махмудов Я.М. Взаимоотношения государств Аккоюнлу и Сефевидов с западноевропейскими странами (II половина XV – начало XVIII века) Баку: Изд–во Бакинского Университета, 1991.
7. Карпов С.П. Итальянские морские республики и Южное Причерноморье в XIII-XV вв. Проблемы торговли, М.: 1990.
8. Dalsar F. Türk sənaye və ticarət tarixində Bursada ipəkçilik. İst., 1960, s.128-129.
9. Шабиев Б. Автор. канд. дис.
10. Muradov V. Orta əsr Azərbaycan şəhərləri, Bakı: 1983.
11. Хамдаллах Казвини, Нузхат-ул-кулуб (материалы по Азербайджану), пер. с.анг. З.М.Буниятова, Б.: 1983.
12. Onullahi S. Təbriz.
13. Piriyev V. Azərbaycan XIII-XIV əsrlərdə, Bakı: Nurlan nəşr., 2003.
14. Клавихо Р.Г. Дневник путешествия в Самарканд ко двору Тимура (1403-1406) Пер. Мироновой, М: 1990.
15. Джидди Т.А. Средневековый город Шемаха (IV-XVII). Б.: 1981.
16. Гейдаров М.Х. Города и городское ремесло Азербайджана в XIII-XVIII вв. Баку: Элм, 1982, с. 91.

17. Путешественники об Азербайджане т. 1. Под ред. Э. М. Шахмалиева . Баку . ИЗ-во АН Азерб. ССР, 1961, т. 1, с. 81.
18. Fəsih Xəvafi, Mücməl Fəsihi. Məşhəd, 1961, II c. (Farsca).
19. Zeynəddin bin Həmdullah Qəzvini. Zeyl-e tarix-e qozide. Tərcümə, müqəddimə, qeydlər və göstəricilər M.D.Kazımov və V.Z.Piriyevindir. Вакı: Elm, 1990, s. 38; Mücməl….. II c., s. 104.
20. Şərafəddin Əli Yəzdi, Zəfərnamə (Azərabaycan tarixinə dair seçmələr), farscadan tərcümə, ön söz və izahlar t.e.d. V.Z.Priyevindir. Вакı, Azərnəşr, 1996 , s. 32.
21. Şami N., göstərilən əsəri, s. 6.
22. Никитин А. Хождение за три моря Афанасия Никитина. 1466 – 1472 . М. – Л. , 1948. qeyd. s. 182.
23. Клавихо, с. 79-80; Путешественники об Азербайджане. т. 1. , с. 56.
24. Никитин А. Хождение, qeyd s. 199.
25. Путешественники об Азербайджане., т. 1., с. 82; Гейдаров М.Х. Города, с. 94.
26. Mücməl….. II c., s. 147-148.
27. Ахмедов Г. Средневековый город Байлакан (ист.-арх. исс.) Авт. Док. дис. Б. 1972, с. 84.
28. Bünyadov Z. Atabəylər…, s. 196.
29. Azərbaycan tarixi, 7 cilddə, III c., s. 71.
30. Şami N., göst. əs, s. 22; Şərafəddin Əli Yəzdi, göst.əs., s. 68-69.

## ГОРОДА АЗЕРБАЙДЖАНА В СОЧИНЕНИЯХ ФЕСИХА ХАВАФИ «МУДЖМЕЛИ ФЕСИХИ»

**У.А.АГАЕВА**

### РЕЗЮМЕ

На основе источника Фесиха Хавафи «Муджмели Фесихи» изучена социально-экономическая жизнь городов Азербайджана в конце XIV – начале XV века.

Автор жил в это время и поэтому его сведения имеют большую ценность. В статье описаны, являющимися основными политическими центрами Азербайджана в указанный период, такие города как: Тебриз, Султания, Шамаха, и т.д. Данный источник был исследован в сравнении с другими источниками этого периода и были сделаны выводы.

## THE TOWNS OF THE AZERBAIJAN IN «MUJMALI FESIHI» FESIH XEVAFI

**U.A.AGAYEVA**

### SUMMARY

In this article are talked about the social-economical life of Azerbaijan towns in the end of theXIV and the begginning of XV centuries based on “Mujmali Fesihi” of Hearat historic Fesih Xevafi. The author himself lived those period, that is why these information are very valuable. The political standpoint of the famous Azerbaijan cities of that period – Tabriz, Sultaniyye, Samaxi and other big business centers are explained in this article. The interesting conclusions carried out researching in comparison with the other sources of that period.